*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 76-93* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.1.76*

***Sovet dövrü Azərbaycan ədəbiyyatı***

# Ədəbiyyatımızın böyük və əvəzedilməz nüfuz sahibi...

***(Şeirimizin zümrüd taclı şairi Qasım Qasımzadənin ədəbi portreti)***

***Qasım Qasımzadə – 100***

**Qurban Bayramov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Qasım Qasımzadənin qəhrəmanları əsrimizin əmək, zəhmət adamları olub, sədaqət, hörmət, səmimiyyət kimi nəcib və ülvi hisslərlə yaşayan, ümumbəşəri ideyalarla qovuşan, yeni və müasir insanlardır. Q.Qasımzadənin əsərləri janr kimi müəyyən dialektik inkişaf prosesi keçmişdir. Bu poemalar mövzu cəhətdən zəngin olduğu kimi, forma etibarilə də əlvandır. Q.Qasımzadə epik və lirik növün müxtəlif janrlarında əsərlər yarada bilmişdir. O həm şəxsiyyət, həm də yaradıcılığı etibarilə ciddi şairdir. Onun poeziyası sevilən, təqdir olunan, öyrənilən poeziyadır. O, şeirin ən kamil poetik vasitələrindən istifadə edərək yaratdığı insanların psixologiyasına dərindən nüfuz edir, onlarda yeni əxlaqi keyfiyyətləri toplayır, ümumiləşdirir və canlı həyat tablosu yaradır. Şairin dili sadə, obrazlı və səmimidir. Onun poemalarının dili aydın, səlisdir. Burada xalq dilinin ruhu, ifadəli və canlı güclü poetik hiss, həyəcan oxucunun qəlbini riqqətə gətirir. Ümumiyyətlə, bu xüsusiyyət Q.Qasımzadə yaradıcılığına xas olan əsas məziyyətlərdəndir. Şairin yaradıcılığını tədqiq edərkən, biz belə nəticəyə gəldik ki, poetik janrın bütün incəliklərinə yaxşı bələd olmuş, onu yeni forma və məzmunla daha da zənginləşdirmişdir.
**Açar sözləri:** yaradıcılıq, məhəbbət, Vətən, poeziya, xalq şairi, sənətkar, qəhrəman, lirik qəhrəman

**Məqalə tarixçəsi:** göndərilib – 10.04.2024; qəbul edilib – 18.04.2024

# A great and irreplaceable influential person of our literature

**(*The literary portrait of Gasim Gasimzade, the poet with the emerald crown of our poetry*)**

***Gasim Gasimzade – 100***

**Gurban Bayramov**
Doctor of Philosophy in Philology, Associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** G.Gasimzade heroes are the people of our century, hard-working people, living with noble and sublime feelings such as loyalty, respect, sincerity, united with universal ideas, new and

modern people. His works have undergone a certain dialectical development process as a genre. These poems are as rich in subject matter as they are colorful in form. G.Gasimzade was able to create works in various genres of epic and lyrical genres. G.Gasimzade is a serious poet both in terms of personality and creativity. His poetry is loved, appreciated, studied poetry. Using the most perfect poetic means of poetry, he penetrates deeply into the psychology of the people he creates, collects and summarizes in them new moral qualities and creates a picture of living life. The language of the poet is simple, figurative and sincere. The language of his poems is clear and fluent. Here, the spirit of the vernacular, a lively and expressive strong poetic feeling, excitement, brings pity to the heart of the reader. In general, this feature is one of the main advantages of G.Gasimzade work. While studying the poet's poems, we came to the conclusion that he was well acquainted with all the subtleties of the poem genre, enriched it with a new form and content.
**Keywords:** creativity, love, homeland, poetry, folk poet, artist, hero, lyrics hero

**Article history:** received – 10.04.2024; accepted − 18.04.2024

## Giriş / *Introduction*

*“Böyük ədəbiyyat sözün həqiqi mənasında əsl elmin həyata keçirdiyi vəzifələri obrazlı şəkildə əks etdirir. Ədəbiyyatın vəzifəsi dünyada, cəmiyyətdə və insanın mənəvi aləmində gedən prosesləri bədii cəhətdən əks etdirməklə müasir zaman haqqında düşünməkdə və çıxış yolları tapmaqda oxucülara bələdçilik etməkdən ibarətdir. Ədəbiyyat – həyatın güzgüsü, yazıçılar zamanın bələdçiləridirlər”* [8].

## Əsas hissə / *Main part*

Zaman və şəxsiyyət anlayışlarını özündə birləşdirən, “zamanın bələdçisinə” çevrilən, qoşa qanadlı mənəviyyat sahiblərindən biri də şair, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, 1950-ci ildən Azərbaycan Yazıçılar İttifaqının (Qeyd: İndi “Azərbaycan Yazıçılar Birliyi” adlanır) üzvü, Azərbaycan SSR Dövlət mükafatı laureatı (1984), filologiya elmləri doktoru (1985), professor Qasım Xansuvar oğlu Qasımzadədir.

Keçən əsrin ən tanınmış ziyalılarından olan Qasım Qasımzadə Azərbaycan poeziyasında imzasını atmış şairdir və ənənəyə sadiq orijinallığı ilə həmişə fərqlənmişdir. Rəssamlıqda belə bir anlayış var – “rənglərin simfoniyası...” Deyərdim ki, Q.Qasımzadənin poeziyası munis hisslərin, duyğuların, iztirab və sevinclərin, fikir və təfəkkürün simfoniyasıdır, dirijoru da şairin özüdür.

Görkəmli Azərbaycan şairi Q.Qasımzadənin ədəbi fəaliyyəti 1943-1993-cü illəri, 50 illik dövrü əhatə edir. O, Azərbaycan ictimai fikrinin, ədəbi düşüncə tərzinin inkişafında əhəmiyyətli rolu olan görkəmli sənətkarlarımızdandır.

Əsərlərində yalnız vətəninin, xalqının deyil, bütün bəşəriyyətin arzu və istəklərini, duyğu və düşüncələrini ustalıqla əks etdirən və bu səbəbdən təkcə doğma vətəni Azərbaycanda deyil, bütün türk dünyasında, eləcə də dünyanın müxtəlif ölkələrində tanınıb sevilən şairin yaradıcılığında poeziya xüsusi mövqeyə malikdir...

Onun poeziyası çoxsaylı oxucusunun daim diqqət mərkəzində olmuşdur. Xalqının tarixinə, ədəbiyyatına, ümumiyyətlə, milli-mənəvi dəyərlərinə sevgidən qaynaqlanan əsərləri həmişə maraqla qarşılanmış, sevilə-sevilə oxunmuş, dillər əzbəri olmuş, lirizminin ahənginə, məzmununun realizmi və həyatiliyinə görə “sözləri dür, cəvahir” (oxucu fikridir – Q.B.) olan mahnı mətnlərinə çevrilmiş, xalq mahnıları səviyəsinə yüksəlmişdir... Sözlərinə yazılmış “Olmaz, olmaz” (musiqisi Zöhrab Abdullayevindir), “Eşqimin növrağı” (musiqisi Hacıbaba Hüseynovun olan bu mahnı “Ögey ana” fil-

mində Əbülfət Əliyevin ifasından sonra şöhrət qazanmışdır), "Məhəbbətin alovu" (musiqisi Xəyyam Mirzəzadənindir), "Qonşu olmaq istəmirəm" (Qeyd: Şairin oğlu Nəriman Qasımoğlunun təqdimatına görə, bu şeirin ilk variantı "Qonşu qız" adıyla fərqli mətnlə 31 iyul, 1950-ci ildə Şuşada qələmə alınmışdır. Şair bu sözlərin üzərində sonradan işləmiş, şeirin süjet xəttinə əlavələrdə qonşu qızın xitablarını da əlavə etmişdir: "Qonşu qız" – Qonşu kimi biz hər axşam, hər səhər, / Gəzdik Şuşa dağlarında bərabər./ İndi sənə bir sözüm var, a dilbər, / Soruşmadan səbəbini gəl dinlə: /Qonşu olmaq istəmirəm səninlə./ * Nə zaman ki, baxışımız öpüşür, / Bu atəşdən varlığıma od düşür. /Ah, bu yerdə günlər nə tez ötüşür... /Bir arzum var, coşub gəlir o dilə: /Qonşu olmaq istəmirəm səninlə. /* Sənsiz heçdir bu yerlərin səfası,/ "Daşaltı"nın, "Şuşakənd"in havası, /Müxtəsəri budur, sözüm qısası: /Köç bizə gəl, quraq təzə ailə, /Qonşu olmaq istəmirəm səninlə. ), (musiqisi Telman Hacıyevindir) mahnıları toylarda, bayramlarda, ziyafətlərdə, efirlərdə ifa edilir, könül xoşluğu ilə dinlənilir. Bitgin bir eşq hekayətini andıran "Eşqimin növrağı" şeir-mahnısı belə səslənir:

*Könlüm düşdü diyar-diyar*
*Bir kəkliyin sorağına,*
*Ha yalvardım, o qonmadı*
*Məhəbbətin budağına.*

*Meyl etmədim bir gözələ,*
*Sədaqətim düşdü dilə.*
*Mən and içdim ildən-ilə*
*İlk eşqimin növrağına.*

*Bir gün yenə onu gördüm,*
*Dilə gəldi həmin dərdim.*
*Bir dəstə gül-çiçək verdim,*
*O almadı qucağına.*

*Əllərimdə gülüm soldu,*
*Riqqətimdən gözüm doldu.*
*Sinəm başı hədəf oldu*
*O dilbərin bu dağına.*

*Sanma könül sınasıdır,*
*Kərəm olub yanasıdır.*
*O, körpəmin anasıdır,*
*Vurulmuşam bu çağına.*

Qasım müəllim ilk gənclik illərindən şeirlər yazsa da, birinci mətbu şeiri 1944-cü ildə "Kommunist" qəzetində çap etdirdiyi "Vəfasız olmaz" adlı poetik nümunədir. Şairin arxivindən tapılmış və sağlığında çap edilməmiş "Sular pərisi" (1945), "İstiqbala səyahət", yaxud "Yerin övladı" (1946) başlıqlı əsərləri də, onun çap olunmayan ilk poemalarıdır. (Qeyd: Şairin arxivini tədqiq edən N.Qasımoğlu yazır: "Qasım Qasımzadə universitet təhsilinin ilk illərində Şərqşünaslıq fakültəsinin türk bölməsinin tələbəsi olmuşdur. O illərdən qalma səliqəli dəftərləri var. Türkiyə yazıçılarının əsərlərindən, qəzetlərdən parçaları bu dəftərlərə köçürürmüş. Türkiyənin "Qaragöz" qəzetində dərc edilmiş bir xəbər diqqətimi çəkdi. 2-ci dünya müharibəsi zamanında Qara dənizdə batmış bir alman yük gəmisi haqqındadır. ...Müharibə zamanı yazdığı dəftərdəki bu qəzet xəbəri diqqətimi niyə çəkdi? Məlum etdim ki, həmin məlumat gənc Qasımın ilk poemasının yazılmasına təkan veribmiş. Poema

"Sular pərisi" adlanır. Yazısını 1945-ci ildə martın 3-də bitiribmiş. İndiyədək çap olunmamış əsərdir. ...Müharibə dövrünə aid lirik sətirlərdə ifadə olunan süjet bundan ibarətdir ki, dənizdə fəlakətə uğramış bir gəminin yaşlı matrosu onu xilas etmiş düşmənlərinin gəmisindədir. ...Göydə üç təyyarə ilə bir təyyarənin döyüşünü təsvir edir. O tək təyyarənin üzərində ulduz nişanı var. Məhz burada bilinir ki, bu, sovetlərə məxsus təyyarədir. Qəhrəmancasına döyüşdə iki təyyarəni pulemyot atəşi ilə sıradan çıxaran pilotun ulduz nişanlı təyyarəsi də zədələnir. Ona görə təyyarəsini salamat qalan düşmən təyyarəsinə çırpır, katapult edərkən isə həlak olaraq sulara gömülür: ***"Saçı dağıldı küləkdə,/ Ah, o ki, dilbər mələkmiş, /İnandırram gözəllikdə,/ Cəsurluqda o qız təkmiş."*** Katapult edən qəhrəman qızın qara saçlı təsviri ilə, şübhə etmirəm, müəllif onun Azərbaycanlı kimliyinə işarə edir. Yaşlı əsir matros gördüklərini danışandan sonra onu xilas edənlərin içində bir gəncin hönkürdüyünü görür. Gənc cibindən çıxardığı şəkli ovcunda tutur, şəklə baxaraq ağlayır. Demə, həlak olan pilot qız onun sevgilisi imiş. Əsir matros onu ovundurmağa çalışır: qədim Misirdə məhsul bol olsun deyə ən gözəl qızları Nil çayına atırmışlar; "odlar ölkəsi"ndə isə Əhrimənin qəzəbindən təbii fəlakətlər baş verərkən xalq nicat tapsın deyə yurdun ən gözəl qızı ilahi qüdsiyyətin gücünə sığınaraq özünü pərvanə tək oda atırmış. Poema bu misralarla bitir**:** ***"...Deyirlər ki, o bakir qız zülmət bağrı söküləndə, /Tutqun dəniz səmasına qızıl şəfəq töküləndə, /Su içindən pəri kimi asimana qanad açır, /Sonsuz göylər aləminə camalından şölə saçır. /Deyirlər ki, o güldükcə nur tökülür yanağından, /Pərvaz edir qumru kimi qəhqəhələr dodağından. /Fəzalarda büsat qurur bir ruhani xülya kimi,/ Yenə cumur dalğalara gözdən itən röya kimi."*** P.S. Vaxtım olanda Q.Qasımzadənin çap olunmamış "Sular pərisi" haqqında daha ətraflı bir yazı ilə mətbuatda çıxış edərəm. 9 Mart 2021.)

Q.Qasımzadənin ilk kitabı 56 səhifədən ibarət "Bizim kənd" (1951) adlanır. Kitaba "Müqəddimə" yazan tanınmış tənqidçi Məsud Əlioğlu onun ilk poeziya nümunələrini və istedadını belə səciyyələndirirdi: "Gənclik illərindən başlayaraq Qasım Qasımzadənin şeirlərində əsasən sovet adamlarının rəşadət və qəhrəmanlığı göstərilir, onlardakı vətənpərvərlik, qorxmazlıq, düşmənə qarşı amansızlıq və yenilik hissləri tərənnüm edilir. "Hünərli dost", "Arzu", "Hücumdan əvvəl", "Vəfasız olmaz" şeirləri bu cəhətdən səciyyəvidir. ...Dinc quruculuq dövründə yeni sovet kəndində yaranan maddi və mənəvi dəyişikliklər, sovet adamlarının gündən-günə artan ideya-siyasi səviyyəsi, zövqü və işi gənc şairin "Kimdir o gənc", "Mənim hədiyyəm", "Bağban və mən" şeirlərində ifadə edilmişdir" [16].

Həmin vaxtdan dövri mətbuatda şeirləri, ədəbi-tənqidi və publisist məqalələri ilə ardıcıl çıxış etmiş və yazıları, qaldırdığı problemlər həmişə diqqətdə olmuş, maraqla qarşılanmışdır. Onun indiyədək 26 poetik, ədəbi, elmi əsəri, 4 tərcümə kitabı çap edilmişdir.

Q.Qasımzadənin yaradıcılıq həyatının ən fəal və məhsuldar dövrü AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda işlədiyi (1954-1959 və 1963-1973- cü illərdə baş elmi işçi, 1973-1993-cü illərdə sovet ədəbiyyatı şöbəsinin müdiri və 30 il İnstitutun ilk partiya təşkilatı katibi) illərə düşür.

Q.Qasımzadə öz ədəbi nəsli, gündaşları arasında fərqlənməyi bacarmış, özünə layiq mövqe və məqamda qərarlaşmışdı. Bu, heç də asan məsələ deyildi. Mənsub olduğu ədəbi nəslə Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qabil, Adil Babayev, İslam Səfərli, Hüseyn Arif, Nəriman Həsənzadə, Məmməd Araz, Əliağa Kürçaylı, Xəlil Rza, Cabir Novruz, Balaş Azəroğlu, Əli Tudə, Söhrab Tahir kimi sənətkarlar daxil idi və bunların hər biri Azərbaycan poeziya kəhkəşanında məqamlanmışdılar. Bu kəhkəşanda Qasım Qasımzadə yaradıcılıq ulduzu da öz parlaqlığı ilə görsənirdi və onun özünəməxsus orbiti var idi...

Şairin nəhayətsiz insansevərliyi, dosta sədaqəti, etibarlılığı, əqidəli xarakteri, gənc istedadlara qayğıkeşliyi sayəsində hamı ona "Qasım müəllim" deyə müraciət edirdi və o, üzərinə düşən müəllimlik missiyasını şərəflə yerinə yetirənlərdən idi.

Bu məqamda o dövrdə istedadlı gənclərdən biri olan, sonralar şair kimi xeyli populyarlıq qazanmış Nüsrət Kəsəmənlinin "Yol" qəzetində Qasım müəllimin hələ sağlığında dərc etdirdiyi xati-

rəsindən bir parçanı qeyd etmək yerinə düşər: "...Mənim üçün birinci amil yaxşını görüb etiraf etməkdir, qolundan tutub ayağa qaldırmaqdır. ...Bu mənada şəxsiyyətinə ən çox hörmət etdiyim Qasım Qasımzadənin adını çəkmək istəyirəm. Bu şairin şəxsiyyəti ilə yazıları arasında "ciddilik" deyilən bir oxşarlıq var. Buraya qətilik və sözübütövlüyü də əlavə etsək, şəxsiyyət tamamlanar. ...Qasım Qasımzadə sözün böyük mənasında şəxsiyyətdir. Ramiz Rövşəni, Seyran Səxavəti, məni (bura Zülfüqar Şahsevənlini, Elnarə Buzovnalını da əlavə edərdim – Q.B.) heç kimin tanımadığı, redaksiyalardan kor-peşman qayıtdığımız bir vaxtda Qasım müəllim "Uğur olsun" yazdı, bizi geniş oxucu kütləsinə tanıtdı. Və nə yaxşı ki, sonralar himayədarlıq etmədi. Elə indinin özündə "mənim yetirmələrimdir" deyib öyünmür. Hərçənd Qasım müəllimin buna haqqı var..." [18]. Baxın, himayədarlıq, kişilik, mərdlik, qədrkeşlik budur... Nüsrət Kəsəmənlinin və bu qəbildən qeyrilərinin Q.Qasımzadə haqqında bu qədər ürəkdən, sevgi ilə, minnətdarlıq və xoş duyğularla danışması artıq Qasım müəllimin cövhərində olan diqqətcilliyi, tələbkarlığı, qayğıkeşliyi, insanlığı, mənəviyyatı və bir sənətkar kimi böyüklüyü barədə hər şeyi deyir, məncə.

Q.Qasımzadə 1923-cü il iyunun 23-də Qubadlı rayonunun Xocamusaxlı kəndində anadan olmuşdur. Onun nəsil şəcərəsi Qarabağın acılı-şirinli hekayətləri ilə səsləşir.

Babası Şahsuvar bəy Kələntərov (Hüseynbəyov) çar dövründə pristav, Cümhuriyyət dövründə Zəngəzur qəza rəisinin birinci müavini işləmişdir. Erməni daşnakları ilə mübarizədə ad qazanmış Şahsuvar bəy, kürəkəni Xansuvar bəy həmişə əqidələri, mərdanəlikləri ilə Zəngəzur – Qubadlı camaatının rəğbətini qazanmışdılar. Qasım müəllim belə bir şəcərənin övladı olmuş və əcdadlarının mübarək ruhu onun xarakterinə, yaradıcılığına, məsləkinə yansımışdır:

*Məsləkim yolunda gəlsəm üz-üzə,*
*Məndən əfv ummasın doğma qardaşım.*
*Hər yerdə, həmişə haqq gəzə-gəzə*
*Ağ gün yollarında ağardı başım.*

Q.Qasımzadə məktəb təhsilindən sonra Şəki Pedaqoji Texnikumunu bitirmiş, Kəlbəcərdə orta məktəb müəllimi, Yevlax Rayon Xalq Maarifi şöbəsində metodist işləmişdir.

Əslən Zəngəzurlu olsa da, "Burdadır" avtobioqrafik məzmunlu şeirində özünün dediyi kimi, ömrünün, ilk məhəbbətinin şirin çağları, ilk məktəb illəri, atası Xansuvar kişinin qəbir yeri, elə bu bölgədə ellər anası olan Arəstə xanım (Qeyd: Qasım müəllimin anası bəy qızı, bəy xanımı olan Arəstə xanım şəxsi bacarığı ilə Kövərlərdə, Yevlaxda, Malbinəsi kəndində, "Kommunizm" kolxozunda) müxtəlif illərdə ferma müdiri, kolxoz sədri, partiya komitəsinin katibi kimi vəzifələrdə çalışmış, 1941-1945-ci illər müharibəsi vaxtı cer-cehizini satıb pula çevirərək bir tankın qiymətini ödəmiş, buna görə şəxsən İ.V.Stalindən təşəkkür məktubu almış, M.C.Bağırovun hakimiyyəti dövründə Azərbaycan KP MK-nın üzvü seçilmiş (Bağırov onun kimin qızı olduğu barədə məlumatlandığı üçün MK-nın sonradan keçirilən plenumlarında onun iştirakına qadağa qoymuşdu), 70-ci illərdə Yevlax rayon PK-nin plenum üzvü, büro üzvü olmuş, Qarabağ bölgəsində ictimai xadim səviyyəsinə yüksəlmiş, xeyirxahlığına görə "ellər anası" adını qazanmışdı, Bax:19). Qarabağla, Qarabağın Yevlax bölgəsinin Malbinəsi kəndinin Kövər adlanan oymağına bağlıdır:

*Qarabağ! Durnalı – ceyranlı çöllər,*
*Qarabağ! Bülbüllü – Qumrulu dillər,*
*Qarabağ! Gözütox – sərvətli ellər,*
*Gücüm-arxam mənim, kürəyim mənim.*

*Ehtiyac bilmirəm əslimi danam –*
*Məni özgə kənddə doğubdur anam.*

*Uzaq bir mahaldan, Zəngəzurdanam,*
*Lakin burda gülüb taleyim mənim.*

Qasım müəllim həm də olduqca nümunəvi ailə başçısı, ər oğlu ər, qayğıkeş ata idi. Onun ömür-gün yoldaşı, həkim Tamara xanım xanımlar xanımıydı, övladları Fəxrəddin (gənc ata olduğu çağda faciəvi şəkildə yaşadığı binanın lift qəzasında həlak oldu... Şair atanın bu ağır dərdə həsr etdiyi “Fəxrəddinli ucalığım” elegiyası poeziyada oğul itkisinə həsr olunmuş bəlkə də, ən təsirli poetik mətndir), Nəriman, Xansuvar hərəsi şərqşünaslıq sahəsində sayılan, seçilən şəxslər olmuşlar.

Q.Qasımzadə gəncliyindən öz cəsarətli, obyektiv mövqeyi, vətəndaş fəallığı, milli qeyrəti, mübarizliyi ilə fərqlənirdi. İstedadı, şəxsiyyəti 40-50-ci illər ədəbiyyat korifeylərimizin diqqətini elə o zamandan cəlb etmişdi. Təsadüfi deyildi ki, onun toy məclisi yazıçı Əli Vəliyevin evində keçirilmiş, məclisə masabəyliyi Səməd Vurğun etmişdi. S.Vurğunun da ilk sözü bu olmuşdu ki, Qasım yaşından çox irəli gedən cavanlarımızdandır [7].

Q.Qasımzadə ali təhsilini Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində almışdır (1945-1950). Ədəbi cameədə məhsuldar şair, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi kimi tanınan Qasımzadə eyni zamanda “Azərbaycan gəncləri” qəzeti redaksiyasında ədəbiyyat və incəsənət şöbəsinin müdiri (1947-1949), “Ədəbiyyat və İncəsənət” qəzeti redaksiyasında tənqid şöbəsinin müdiri, Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspirantı (1950-1953), baş elmi işçi əvəzi (1953-1954), baş elmi işçi (1954-1959), “Ədəbiyyat və incəsənət” qəzetinin baş redaktoru (1957-1963) vəzifələrində uğurla çalışmışdır.

Onun “Ədəbiyyat və incəsənət” qəzetində baş redaktorluğu həmin dövr Azərbaycan ədəbi qəzetçilik işində tamamilə yeni bir səhifə, yeni bir təfəkkür tərzi yaratmışdı. Qəzet redaktorluğu üçün verdiyi nümunələr də önəmli idi. Məsələn, rəhbərlik etdiyi ədəbi orqanda gedən şeirlər onun təşəbbüsü ilə belə dərc edilirmiş: qəzetə daxil olan şeirlər redaksiyanın yığıncağında müəllifləri elan edilmədən oxunur və anonim qaydada keçən bu şeir oxusunda bəyənilən ən yaxşı nümunələr müəlliflərinin kimliyi nəzərə alınmadan qəzetdə dərc edilirmiş. Təsəvvür edin, məşhur xalq şairləri şeirlərinin dərcini gözləyir, tanınmayan birilərinin orijinal şeirləri növbəsiz çapa gedirmiş. Bundan əlavə, sovet imperiyası illərində Q.Qasımzadə bəlkə də yeganə baş redaktor imiş ki, qəzetdə tabe olduğu orqanın rəhbərliyini, eləcə də xalq yazıçılarını tənqid edən yazıların getməsinə şərait yaradırmış. Bu, ümumən sovet, eləcə də bizim mətbuat tariximizdə unikal hadisələrdən sayıla bilər. Onun baş redaktorluğu dövründə qəzet səhifələrindəki maraqlı ədəbi müzakirələrə, mübahisələrə görə “Ədəbiyyat qəzeti” Azərbaycanda ən çox oxunan mətbuat orqanı sayılırmış. Bunu da xatırladım ki, “Ədəbiyyat və incəsənət” qəzetinin redaktoru olduğu vaxtlarda sətiraltı mənalar ifadə edən, xalqın, bütöv Azərbaycanın taleyini bu və ya digər şəkildə özündə əks etdirən yazıları çap etməkdən qətiyyən çəkinməyən Q.Qasımzadə ideoloji təqiblərə də məruz qalırdı. Xəlil Rzanın məşhur “Azadlığı istəmirəm zərrə-zərə, qram-qram, istəyirəm qolumdakı zəncirləri gərək, qıram, qıram” misraları olan məşhur, üsyankar şeirini (senzuradan yayınmaq üçün “Afrikanın səsi” adı altında), Rəsul Rzanın Müşfiqə həsr etdiyi ”Qızıl gül olmayaydı” poemasını müəllifin nüfuzuna baxmayaraq heç bir jurnal-qəzet yaxına buraxmayanda qəzetdə dərc etməsi hakim partiya nomenklaturası qarşısında tutduğu vəzifəsi üçün, əlbəttə, riskli idi. O dövrün acılı-şirinli olaylarını Qasım müəllim bir müsahibəsində belə xatırladır: “…Mən də əlimə qələm götürən məqamda gözümün qarşısında həmişə Qlavlitin, DTK-nın məşum fiquru boyaboy dayanıb. Ürəyimdə tutduqlarımı sətiraltı, rəmzi obrazlarda, ifadələrdə çatdırmağa çalışmışam. O zamanlar cürətli sayıla biləcək cüzi addımıma görə isə Azərbaycan KP MK-nın töhmətindən başlamış işdən götürülməyə qədər cəza payına layiq görülmüşəm. “Ədəbiyyat qəzeti”ndə baş redaktor işləyəndə “Novruz bayramı” sərlövhəsinə görə, Dərbənddə açılmasına icazə verilən Azərbaycan dilində teatra kömək məqsədilə material dərc etdiyimizə görə Mərkəzi Komitədə bizə vurulan “dini, milli həddini aşmaq” damğası, Xəlil Rzanın bir qədər üsyankar şeirləri üstündə töhmət aldığım, nəhayət, vəzifədən xaric edildiyim ədəbi ictimaiyyətin müəy-

yən qisminə məlumdur. Onda da, indinin özündə də bu cəzaları mükafat kimi qarşılamışam... İndiki günləri görəndə Allaha min dəfə şükür edirəm ki, ölmədim, imperiyanın süquta getdiyinin şahidi oldum. Bu mənada biz nəslin məncə, qazancı itkilərindən daha böyükdür, əvəzsizdir" [10].

Q.Qasımzadənin ədəbi və elmi yaradıcılığı bu bədii, elmi, tənqidi, publisist kitablarında əksini tapır: "Bizim kənd" (şeirlər), 1951; "Bizim şəhər" (şeirlər), 1953; "Bizim dağlar" (şeirlər), 1955; (Qeyd: Sovet dövrünün 1950-ci illərində bu başlıqlardakı "bizim" kəlməsinin işlədilməsi sətiraltı çox mətləblərdən xəbər verir.); "Nikolay Ostrovski" (monoqrafik tədqiqat), 1955; "Azərbaycan ədəbiyyatında xalqlar dostluğu" (monoqrafiya), 1956; "Ürək döyüntüləri" (şeirlər), 1959; "Son görüş" (şeirlər), 1960; "Süleyman Rəhimov" (monoqrafiya), 1960; "Balaca dayə" (şeirlər), 1962. (Qeyd: Bu kitabın adı biblioqrafik məlumatda səhvən "Kiçik dayə" getmişdir. Q.Qasımzadənin 1962-ci ildə çapdan çıxan "Balaca dayə" poeması Əlcəzairdə fransız zülmünün yerli ərəblərə gətirdiyi faciələrin qısa, epizodik mənzum hekayəsidir. Fransanın hazırda Ermənistanın cinayətlərinə haqq qazandıran hoqqaları fonunda aktuallığını itirməyən poemadır. Təkrar çapına ehtiyac var...); "Nəğməli ürəklər" (şeirlər), 1963; "Bənövşə yarpağı" (şeirlər və poemalar), 1964; "İsmət" (şeirlər, poema),1966; "Утешение" (стихи), 1968; "Aşıq gördüyünü çağırar" (məqalələr), 1969; "Лес дышал" (Стихи и поэма), / Перевод с азерб. Н.Коржавина. – Москва: Сов. писатель, 1970; "Getdim, gördüm, düşündüm", 1971; "İnsan min il yaşardı" (şeirlər), 1973; "Keçmə namərd körpüsündən" (şeirlər), 1975; "Dağlar buraxmır məni" (şeirlər), 1978; "Daşdan keçən söz" (şeirlər-poema), 1981; "Ədəbiyyatda millilik və beynəlmiləllik" (monoqrafiya),1982; "Səndən ayrılalı" (şeirlər), 1985; "Şəfa çantası (şeirlər)", 1986; "Seçilmiş əsərləri" (şeirlər), 1988; "Ədəbiyyatımız, mənəviyyatımız", (məqalələr), 1988; "Seçilmiş əsərləri", 2005. (Qeyd: Burada Qasım müəllimin yaradıcılığını və portretini yığcam şeir formatında təqdim edən mühüm bir faktı da xatırlatmaq istərdim. 1983-cü ildə Bakıda Aktyor Evində keçirilmiş 60 illik yubileyinə təbriklərlə gələnlərdən biri EA Şərqşünaslıq institutunun direktoru, görkəmli alim, şərqşünas, akademik, şirin şeirlər və şairlərə məzmunlu, ironiyalı parodiyalar yazan Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov idi. Həmin təbriknaməni latın şriftilə ilk dəfə N.Qasımzadə sosial mediada təqdim etmiş, mətn mətbuatda çap edilməmişdir. Mətndə dırnaqlara alınan ifadələrin bəzisi Q.Qasımzadənin kitablarının adları, bəzisi də şeirlərinin başlıqlarıdır: *"Görkəmli alim, istedadlı şair Qasım Qasımzadənin 60 illiyinə.* Altmış yaşlı cavan Qasım müəllim, /Həm gözəl şairsən, həm gözəl alim! /Şerində baharın təravəti var, /İnsanın torpağa məhəbbəti var. /Sən ki "El yolu"ndan sənətə gəldin, /Şöhrətə gəlmədin, qeyrətə gəldin, /Sənə qələm verdi əzəl "Bizim kənd", /Gördü öz hüsnünü şeirində bənd-bənd. /"Bizim şəhər"i də sözə gətirdin, /Hər nə gətirdinsə, təzə gətirdin. /Nə vaxt yolun düşsə "Bizim dağlar"a, /"Son görüş" yerində çəkildin dara. /Aşdın gədiklərin dəvə boynundan, /"Dağlar buraxmadı səni" qoynundan. /"Namərd körpüsü"nə ayaq basmadın, /Naxələf sözünə qulaq asmadın. /Vəsf etdin "Bənövşə yarpağı"nı sən, /Bənövşə ətrinə büründü Vətən. /Şerində çiçəklər, güllər açıldı, /Lalə yanaqlardan "İsmət" saçıldı. /"Daşdan keçən söz"ün ürəkdə yaşar, /Əməldə, arzuda, diləkdə yaşar. /"Aşıq gördüyünü çağırsın" gərək, /Sən belə söylədin vəcdə gələrək. /Gecəli-gündüzlü yazdın, yaratdın, /Qəlbinin odunu sözünə qatdın. /Min il əfsanədir, sən yüz il yaşa, /Adın vətəninlə çəkilsin qoşa! /Ərəbin, əcəmin, türkün və kürdün /Gəzdin ellərini, dərdini gördün. /Təbrikə gəlmişik Şərqin adından /Şərqin dərdinə də məşəl kimi yan! İmza: partkom, mestkom və direksiya, Alim, şair dostun Bünyadov Ziya.")

Bu sonuncu kitabda "Olmaz, olmaz!" deyirsən", "Şuşa Qarabağın zümrüd tacıdır", "Təbiətin qız vaxtıdır", "Onlar yaranışdan təzimdədirlər", "Bosfor sahilinə düşdü güzarım", "Fərəhli, ayazlı dünyam", "Mənim gözüm ulduzlara, günə, aya zaman-zaman baxacaqdır" başlıqlı bölmələr var ki, bunların məna və mahiyyəti, estetik çalarları Qasımzadə poetik yaradıcılığını dürüstlüklə səciyyələndirir. Kitabın məzmun və mahiyyəti onun poeziyasının zəngin, rəngarəng mövzu, məzmun, forma palitrasından xəbər verir, taleyin güclü və amansız sarsıntılarına dözüm gətirərək xalq taleyi ilə şair taleyinin qovuşuğunu nümayiş etdirir. Toplunu şairin oğlu, tanınmış şərqşünas Nəriman Qası-

moğlu şairin 1988-ci ildə çap olunmuş “Seçilmiş əsərləri” əsasında tərtib etmişdir. “Ön söz”ün müəllifi tənqidçi-filosof Yaşar Qarayev, nəşrə məsul tanınmış nəşriyyatçı Ümid Rəhimoğludur.

Onun zövq oxşayan şeirlərinin başlıca xüsusiyyəti mövzularının orijinallığına və əhəmiyyətinə görə kəsb etdiyi təbiilik və xəlqilikdir. Bu nümunələrdə lirik “mən” lirik xarakterə, lirik xarakter isə lirik qəhrəmana çevrilir. Lirik qəhrəmanı hər cür biganəlikdən uzaqdır, türk ruhu daşıyan azərbaycanlıdır...

“...Uzun zaman ideoloji yasaq və qadağalara, kommunist diktatorluğuna qarşı bəzən birbaşa, bəzən də dolayısı ilə mücadilə edən Sovet dövrü Azərbaycan şair və yazarlarının Türkiyə ilə ilgili xatirələri, səfər və görüşləri haqqındakı qeydləri bu gün üçün qiymətli sənədlərdir. Bu əsərlərdə olan məlumatlar bizə o dövrdə Türkiyə Cümhuriyyətinin ictimai-siyasi və sosial-mədəni durumu haqqında məlumatlar verir, həmçinin zorla sərhədlərə ayrılan Türkiyə və Azərbaycanın bir-birinə olan mənəvi bağlılığını, sevgisini özündə əks etdirir” [1].

Qasım müəllim – azərbaycanlı türkü İstanbulda digər bir nəhəng türkün – Tofik Fikrətin Aşiyan məskənini ziyarəti zamanı onun pəncərəsindən Bosforu seyr edərkən keçirdiyi hisslərini məhrəmliklə belə ifadə edirdi: “Dünyanın ən gözəl pəncərəsi!.. Bosfor. Uzaqdan görünən silsilə dağlar, yaşıllığa gömülmüş imarətlər, çəmənlik-çiçəklik, qədim qala divarları. Pəncərənin çərçivəsi həcmində Bosforun misilsiz, seçilib bir yerə cəm olmuş mənzərəsi, elə bil ki, gözümüz önündə dayanan canlı təbiətin bir guşəsi deyil, mahir rəssam əli ilə çəkilən əsrarəngiz bir lövhə üfüqdən asılmışdır. Həmin lövhə indi də gözümün önündədir...” [11].

Tofiq Fikrətə (Qeyd: Tofiq Fikrət (1867-1915) – Osmanlı dövründə yaşamış büyük türk şairi, pedaqoqu və jurnalisti, türk ədəbiyyatında “Sərvəti-fünun” və ya “Ədəbiyyati-cədidə” adlanan cərəyanın banisidir. İnqilabi və idealist fikirləri ilə Mustafa Kamal başda olmaqla dövrünün ziyalılarına təsir göstərmişdir. Türk ədəbiyyatının qərbləşməsində əsas rol oynamış müəlliflərdən biri kimi də məşhurluq qazanmışdır. Azərbaycan şairlərindən M.Hadi, H.Cavid, A.Səhhət, Səməd Vurğun və b.-nın yaradıcılığına da təsitr göstərmişdir.) həsr etdiyi “Ən gözəl pəncərə” şeiri bu misralarla başlayır:

*...Bosfor sahilinə düşdü güzarım,*
*Nağılmı, röyamı bilə bilmədim.*
*Çoxaldı sevincim, artdı məlalım,*
*Ağlaya bilmədim, gülə bilmədim*

Son iki sətirdə şairin əhvalını ifadə edən sözlər Q.Qasımzadənin Türkiyə sevdasını necə də məhrəmliklə bildirir. 1968-ci ildə qələmə aldığı “Türkiyə silsiləsi”ndən “Türk gözəli” şeiri eləcə türk gözəli kimi əlahiddə gözəlliyə malikdir və şeiri yarımçıq şəkildə təqdim etməyi özümə də, oxuculara da rəva bilmirəm:

*Mərmərəni seyr elədik ada-ada,*
*Gözəllikdən gözəlliyə çata-çata.*
*Ada demə, altı bacı – su pərisi,*
*Gülab səpdi arxamızca hər birisi.*
*Böyük ada, Yaşıl ada güldü gözə.*
*Heyran qaldıq uçrumlara, şamlıqlara,*
*Heyran qaldıq: dəniz hara, bulaq hara?*
*Xınalıda bir qız çıxdı gəmimizə.*
*Elə bil ki, süzülmüşdü o mahnıdan:*
*“Aman allah, gözlərə bax, gözlərə bax...”*
*Pəri idi, kim deyərdi bəni-insan.*
*Üzüb gəlmiş mavilikdən ayrılaraq.*

*Yox, tanışdı, doğma idi, qəşəng idi,*
*Salam verib yanımızda yer istədi.*
*Geyinmişdi yeni dəblə – donu dizdən.*
*Çantasıyla gizlətsə də bunu bizdən.*
*Danışdıqca incə-incə, şirin-şirin,*
*Hiss elədik qəlbi safmış, fikri dərin.*
*Gətirmişdi saçında çöl çiçəyini,*
*Baxışında dərələrin yuxusunu,*
*Yanağında zanbaqların ləçəyini,*
*Üst-başında zeytun, ardıc qoxusunu.*
*Gözlərində ləpələrin mor rəngini,*
*Gülüşündə Sakaryanın ahəngini.*
*Təbiətdən yoğrulmuşdu təbiəti.*
*Tapındığı – öz torpağı, öz milləti.*
*Mərd davransan niyyətini o, bilərək*
*Hörmət qoyar, yüz kişidən seçər səni.*
*Maral gözü şir gözünə çevrilərək*
*Baxışının qılıncıyla biçər səni*
*Tamah salıb sərxoş-sərxoş baxsan ona.*
*Qəzəbindən dönər çılğın bir aslana,*
*Atılar da üzərinə dəli-dəli*
*O mehriban, o füsunkar türk gözəli.* [12]

Bu, şeir deyil, mini-poemadır, sözlə çəkilmiş portretdir, türk qövmünə, Türkiyəyə məhəbbətdir, iki yurdun tək gözəlinə sədaqətdir, ülfətdir, türk gözəlinin namus, qeyrət, əxlaq mücəssiməsinin poetik bəyanıdır ki, şairin öz təbiətini də nişan verir. Xalq şairi, akademik Bəxtiyar Vahabzadə həmkarı və dostu haqqında bir yazısında onun özünün də belə bir əxlaq daşıyıcısı olduğunu qeyd edirdi: "Namus və əxlaq mücəssəməsi Qasımla uzun illər tələbə yoldaşı, dost olmuş, dərd və sevincimizi birgə bölüşmüşük...

...Oğlu Fəxrəddinin vaxtsız itkisindən sonra Şuşa, Laçın, Kəlbəcərin işğalı şairin qəlbinə çalın-çarpaz dağ çəkmişdi. Şeirlərində "Belə qalsa, belə dursa, məzarım od tutub yanar" deyən şair ömrünün son çağlarında yazırdı: "Vallahi, billahi, ən səmimi ürək sözümdür ki, bu halımda mənə silah versinlər, ən şiddətli döyüş xəttinə gedim, qanım torpağıma qarışsın. Bilmirəm bu təmənnamı necə çatdırım ki, məni qınamasınlar… Gərək də qınamazlar. Çünki ömrüm boyu milli mənafedə başqa mənafeyim olmayıb...." [7]

Q.Qasımzadə poeziyasını yaşadan başlıca xüsusiyyətlərdən biri də cürətdir, vətəndaş cürəti, sənətkar cürəti. Bunu şairin ötkəm fikirlərində də, əsərlərinin şəkli xüsusiyyətlərində də görürük.

Q.Qasımzadə süjetli lirikanın ustasıdır. "Bu gün səni gördüm", "İnsan-alov", "Gəlmişəm", "Anamgildədir", "Pənah gətirmişəm", "Təbiətin qız vaxtıdır", "Dağlar buraxmır məni", "Şuşa Qarabağın zümrüd tacıdır" ("Zümrüd tac"), "Qartal gözü" və s. bu qəbildən onlarla şeiri çox hallarda daxili, gərgin monoloq, səmimi təhkiyə, hissi-psixoloji xüsusiyyətləri, lirizm ilə epizmin (lirik təhkiyyənin) qovuşuğunda vətəndaş, sənətkar cürəti ilə yazılmış mini-poemaları xatırladır.

Q.Qasımzadə torpağa, vətənə könüldən bağlı sənətkar idi. O, Azərbaycanı qarış-qarış gəzib, təbiətini, gözəlliklərini könlünə köçürüb, sevərək vəsf etmişdir. "Azərbaycan", "Sehrli torpaq", "Vətən" yazdım", "Diyarım", "Qapını bağlayan fələk", "Sinəsi dağlı dağ", "Laçın qayası", "Gəncənin yanında", "Göygöl mənzərələri" – bu qəbildən şeirlərinin bir qismidir. Vətən sevgisi hər kəsin doğulduğu, yaşadığı kənd, şəhər, yer-yurddan başlanır; Qasım Qasımzadə üçünsə Vətən onun zümrüd tacıdır:

*Qarabağ...*
*Nə zaman çəkilsə bu ad*
*Gözümün önündə bir qız dayanır:*
*Hörüyünün kökü buz tutub qat-qat,*
*Atlaz paltarının*
*Ətəyi yanır...*
*Qarabağ –*
*Mehriban, gözəl, vüqarlı,*
*Yurdumun qızıdır,*
*Kamalı dərin.*
*Qarabağ –*
*Sinəsi şeirli, tarlı,*
*Döşü havalıdır, ləhcəsi şirin.*
*Yer üzü dinləyir zənguləsini.*
*Ağır yığnaqlıdır,*
*Söz-söhbətlidir.*
*Görənlər o qızın saf çöhrəsini*
*Deyər nə həyalı, nə ismətlidir!*
*Mərdlik zirehiylə*
*Döşü sipərli,*
*Nüşabə idraklı,*
*Həcər təpərli.*
*Əli buludlarda,*
*Ayağı Kürdə,*
*Açıq süfrəsinin qonağı saysız...*
*Kim əsir istəyib*
*Onu bu yerdə*
*Boynunu qılıncdan keçirib o qız!*
*Bədxahı boğmaqçın qəsdinə duran*
*Xaçın, Qarqar onun qoşa saçıdır.*
*Başının üstündə yanıb bərq vuran*
*Şuşa Qarabağın zümrüd tacıdır!*

Dramatik narahatlıq duyğusu ilə səciyyələnən şeirlərindəki əsrarəngiz təbiət detalları, çox sayda xarakter və obrazlar milli mənəvi-estetik məzmun daşıyır, yaddaşda cilalanan ümid və inam ifadə edən rəmzi çalar kəsb edir... Onun “Azərbaycan”, “Sehirli torpaq”, “Vətən”yazdım”, “Dəniz xislətli torpaq”, “Bənövşə yarpağı” qəbildəndir. “Qartal gözü” şeirindəki Azərbaycan xəritəsini uçan qartala, paytaxt Bakımızı bu qartalın gözünə bənzətməsi poeziyamızda tamamilə orijinal bir obraz idi:

*...Kim deyər ki, var onun*
*Özgə quşa bənzəri?*
*Dimdiyində aparır*
*Elə bil ki, Xəzəri.*

*Bakı! Sən bu qartalın*
*Yanar, parlaq gözüsən.*

*Bədnəzərin gözünə*
*Batan oxun özüsən!*

“Azərbaycan” onun poeziyasının baş mövzusu idi. “Azərbaycan”a həsr etdiyi şeirlər məzmun və mənaca Əhməd Cavadın, Almaz İldırımın, Səməd Vurğunun bu mövzuda yaratdıqları ölməz şeir silsiləsində öz layiqli yerini tutur. Şair bu şeirlərində vətənə sevgini insana – vətəndaş insana sevgilə birləşdirir və üzvi vəhdət halında təqdim edir:

*Babalardan qalma sözdür, – əziz mehriban*
*Ana deyə çağırırıq Azərbaycanı.*
*Vətən quru dağ-daş deyil...*
*Onu hər zaman*
*Seyr etdikcə biz görürük*
*Canlı insanı.*

Və yaxud:

*...Bir həyanım vardır, yol yoldaşıtək*
*Həmişə yanımca o, addımladı.*
*Onsuz qürbət eldə donardı ürək,*
*O əziz sirdaşın... vətəndir adı.*

Şair “Azərbaycan” şeirində “vətən-insan”ı belə təqdim edir: “Şirvan yolu alnındakı qırışlarıdır”, “Nifrətidir, qəzəbidir Bakı küləyi”, “Abşeronum – onun isti, odlu ürəyi”, “Sazlı-tarlı, xoş avazlı Qazax, Qarabağ”, “Bol nemətli süfrəsidir – Ağdam, Lənkəran”, “Düşməninə yumruğudur Laçın, Qubadlı”, “Sol döşündə orden kimi yanır Naxçıvan” [13]. Burada həm təbiət, həm mədəniyyət, həm də bunların hər ikisinə aid xarakterik xüsusiyyət Vətən obrazının poetik təqdimatı üçün istifadə olunmuşdur.

Filologiya elmləri doktoru, şair-alim Rafiq Yusifoğlu Qasım müəllimin yaradıcılığını belə dəyərləndirir: “XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Qasım Qasımzadə Azərbaycan təbiətini vurğunluqla tərənnüm edən şairlərimizdən biridir. Bu da təsadüfi deyil. Çünki Qasım Qasımzadə Azərbaycanın dilbər guşələrindən birində – Qubadlı rayonunun Xocamsaxlı kəndində dünyaya göz açmışdı. Hər daşının altından bir çeşmə paqqıldayan Xocamsaxlı kəndinin axarlı-baxarlı mənzərələri, şiş qayaları onu məftun etmiş, Ağa çayının laylası onun ürəyini şeirə, poeziyaya məhəbbət ruhunda kökləmişdi. Bol sulu Bərgüşad, Həkəri çayları, Çayzəmi, Əyin, Başarat meşələri, göylərə baş çəkən Kəpəz, Səngər dağları, Ballıqaya, Salvartı yaylaqları onun poeziyasının beşiyi olmuşdu... Onun poeziyasında vətənin başı qarlı uca dağları, diş göynədən bulaqları, zümrüd donlu meşələri, səfalı yaylaqları, göz işlədikcə uzanan bərəkətli çölləri vurğunluqla tərənnüm edilir” [20].

Şairin poeziyasında gözəlliyə səyahət və gözəlliyi dərk ruhu vardır. Onun poetik nümunələri əsasında oxucular tarixlə, müasirliklə, gələcəklə, təbiətlə, ictimai həyatla ünsiyyətdə olur, şair milli yaddaşla vətəndaş arasında təmasın mənalı, ibrətli məqamlarını yaradır. “Günəş”, “Neyin əfsanəsi”, “Çərkəz oğlu” şeirlərində folklorizmdən qaynaqlanan “Danko ürəyi” simvolikasında, sətraltı ifadələrlə milli azadlıq, suverenlik, müstəqillik ideyalarını tərənnüm ediri.

Yazılarında ədəbi fakta, mətnə həmişə orjinal yanaşma və təhlil üsulu ilə fərqlənən ədəbiyyatşünas-tənqidçi, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu Q.Qasımzadənin 70 illik yubileyi münasibətilə qələmə aldığı məqaləsində yazırdı: “Azərbaycanda milli gəlişmə demokratiya uğrunda mübarizə şəklində bəlirli bir ölçü və hüdudlar kəsb etdikcə ədəbi ictimaiyyətin də bir çox nümayən-

dələrini ictimai-siyasi savaşın ön sıralarında gördük. Qasım Qasımzadənin 70 illik ömür yolunda, 50 illik yaradıcılıq taleyində bu mərhələnin xüsusi yeri var. Q.Qasımzadə hər şeydən öncə usanmadan zamanın ideyalarını təbliğ edən, demokratiya, azadlıq və milli müstəqillik yolunda atılan hər bir addımı qələmi ilə müdafiəyə qalxışan və qələbələrimizi böyük bir sevgi və qısqanclıqla tərənnüm edən alovlu publisist kimi çıxış edir... Q. Qasımzadə və mənsub olduğu ictimai-ədəbi nəsil zamanla daim bilavasitə müxalifətdə olmuşlar. Şairin yaradıcılığının hərfini deyil, ruhuna bələd olmaq istəyənlər (istər o zaman, istərsə də bu gün) onun ”Seçilmiş əsərləri”ndə yalnız bir mövzu, bir predmet, bir ünvan tapır: seviləsi Vətən, sevgisində yaşayan millət, iftixara layiq Azərbaycan. Onun rəngarəng yaşantı və duyumlardan ibarət şeirləri bir məqam üzərində qərar tutur: milli özümlük, milli fəxarət... O da qeyd olunmalıdır ki, bu, nəinki Q.Qasımzadə poeziyasının, onun bütövlükdə həyat və fəaliyyətinin də məğzini, mayasını, poetikasını təşkil edən başlanğıcdır” [21; 22].

Müsavat Məclisinin fəal və müqtədir üzvü olmuş Qasım Qasımzadənin hürriyyət sevinci və qürurunu əks etdirən fikrini təqdim etmək də yerinə düşər: “...Ölmədim, xain imperiya qüvvələri tərəfindən endirilmiş üçrəngli bayrağımızın “kişi kimi yaşayan” millətin cəsur oğullarının əlləri ilə Azadlıq meydanında bir daha ucaldığını gördüm. 1988-ci ildə kükrəyən meydan mitinqlərinin birində üç rəngin məna vəhdətindən yaranmış bu bayraqla ilk dəfə üz-üzə gəldiyim məqam ömrümün ən həyəcanlı, ən bəxtəvər anı idi. Baxışında övlad doğmalığı tapdığım gənci bağrıma basdım. Əlində tutduğu, nənəsinin ipəkdən tikdiyi bayrağı öpüb riqqətli göz yaşlarımla islatdım. Bu, əslində milli ideala qovuşma mərasimi idi. Milyonların əsrlərcə həsrətini çəkdiyi gündü ki, biz nəsil də kamsız qalmadıq... ” [14]

Q.Qasımzadənin şeirləri kitabdan, ədəbiyyatdan yox, taleyindən, çəkdiyi acılardan, sevgisindən və ayrılıqlarından, sevinc və iztirablarından, milli-mənəvi qürur və öygülərindən gəlirdi.

Ədiblik – şairlik Q.Qasımzadənin stixiyasıdır... Bəzən iç dünyasını və yaşadıqlarını çılpaqlıqlarına qədər göstərməkdən çəkinməyən, cəsarətli, mərd və səmimi, bəzən də heç bir haqsızlığa dözməyən, üsyankar və barışmazdı Qasım müəllim...

Onun poetik ruhu lirikanın təbiətindən doğur. Professor, AMEA-nın müxbir üzvü Təhsin Mütəllimov lirikanın təbiətini, təsir gücünü doğru olaraq belə müəyyənləşdirir: “Lirikanın emosional gücü və mərhəmətliyi ilk növbədə ondadır ki, o, hardasa oxucunun şəxsi “dərdlərini” təzələyir, nisgil və həsrətini yenidən yaşadır, kövrəldir, duyğulandırır. Xatirələr yada düşür, kövrəldir və bir növ fərdi dərdlərin də bədii tərcümanına çevrilmiş olur... Lirikanın əsl estetik cazibəsi məhz bu nisgil, həsrət müştərəkliyindədir!..” [17]

Q.Qasımzadənin lirikası bütün səmimiyyət çalarları ilə eynən belədir. Onun lirikası çoxçeşidli tale şeirlərindən, etnik-kulturoloji əsasdan süzülərək natural emosiyalarla müasirliyə, çağdaşlığa xidmət edən xarakterdən ibarətdir, tale lirikasıdır. Bunlar bədii sözün nüfuzunu artıran, milli ruh yeniliyi, poetik düşüncəsinin orijinal rəngarəngliyi ilə fərqlənən yanğılı, təsirli poeziya nümunələridir, həyatımızın cövhərini üzə çıxaran lirikamızın ən gözəl örnəkləri sırasındadır.

Görkəmli ədəbiyyatşünas-tənqidçi, filologiya elmləri doktoru, professor Əkbər Ağayev şairin yaradıcılıq məziyyətlərini qiymətləndirərək yazırdı: “Qasım Qasımzadənin poeziyasında ardıcıl, fəal həyat mövqeyi və təbiilik aydın seçilir. Şair qətiyyən özünü müasir həyat hadisələrindən kənar hiss etmir, heç nəyə laqeyd baxmır, onun lirik qəhrəmanı həssasdır, görüş dairəsi genişdir, elə buna görə də, bu lirik qəhrəmanın qəlbindən keçib poetik incilərə çevrilən mövzular, həyat materialı zəngin və çoxşaxəlidir: səhrada dağ kölgəsi, əbədiyyət, haçaqaya, nəbzin vurması, qış, bahar, güllər, çiçəklər, ballı qayalar, zəriflik, mətanət, həsrət, məhəbbət, qanlı-qadalı illər, uzaq ellərin dərdi – bütün bunlar şairin poetik sözündə canlanır, mənalanır, bu anlayışların hər birində yeni çalarlar parlayır, fikirlərin əlvan poetik qövsi-qüzehi yaranır. Lakin bu zəngin poetik fikir silsiləsində Qasım Qasımzadənin diqqətindən heç bir zaman yayınmayan poetik ahəngin bütün məqamlarında öz yerini tapan bir mövzusu var: Azərbaycan!” [4; 5].“Qasım Qasımzadənin şeirlərində ictimai-siyasi motivlər incə, lirik hisslərin ifadəsi ilə gözəl birləşir” [6].

Q.Qasımzadənin yaradıcılıq leytmotivi elmi-nəzəri tədqiqatlar sferasında da bir orbitdə, bir mahiyyətdə mənalandırılır: “Qasım Qasımzadənin poetik sözü sadə əmək adamlarının həyatını, fəaliyyətini və könül dünyasını ifadə edir, oxucusunun ən çətin anlarında həmişə ürək sirdaşı, yardımçısı, məsləhətçisi olmağı bacarır. Çünki bu poeziya xalqını, vətənini canından çox sevən vətən oğlunun, xalq şairinin qələminə məxsusdur. Onun mayası müdrik bir çeşmədən, xalq ədəbiyyatından, folklordan qaynaqlanır. Doğma xalqının, vətəninin dərdlərindən söz açarkən, şairin publisistik dili sanki bayatı çağırır, ağı söyləyir. “Qəzəbli dağlar” əsərində şairin səsini, harayını duymamaq mümkünsüzdür. Burada xalqın azadlıq ideyası özünün nikbin bədii ifadəsini tapır, vətən sevgisini estetik və emosional bir şəkildə təbliğ edir. Bu isə böyük ustalıq və sənətkarlıqdan xəbər verdiyi kimi, eyni zamanda, böyük ürəkdən, sənət yanğısından, vətənpərvərlik duyğularından “danışır”, şairin şəxsiyyəti, mənəvi ucalığı barədə oxucusunu agah edir, onları – müəllif və oxucunu – doğmalaşdırır” [2].

Q.Qasımzadə yaradıcılığının mühüm bir qolu da tərcüməçilik fəaliyyəti ilə bağlıdır. Ədibin tərcümə fəaliyyəti M.Tursunzadənin “Hindistan balladası” (1950), M.Mirşəkərin “Qızılqışlaq” (1954), İ.Noneşvilinin “Qonaq gəlin Gürcüstana” (1955), M.Tursunzadənin “Asyanın səsi” kimi kitabları əhatə edir. Onun bu tərcümələri sırasında Y.Yevtuşenkonun “Афганский муравеу” (“Əfqan qarışqası”) şeirini (1983) təqdimatı unudulmazdır: bu, Rusiya imperiyasına Qasım müəllimin Yevtuşenko dili ilə vurduğu sərt sillə idi:

*Sərilmişdir rus cavanı Əfqanıstan düzündə,*
*Gəzir müsəlman-qarışqa onun tüklü üzündə.*
*Çoxdan ülgüc toxunmayan sifətdə gəzmək çətin,*
*O mərhumun qulağına pıçıldadı xəlvəti:*
*“Heç bilirsən yaralanıb öldüyün yer haradır,*
*Bircə onu bilirsən ki, yaxınlıqda İrandır.*
*Burda islam sözünü də eşitmisən ilk dəfə,*
*Nə niyyətlə silahlanıb bəs gəldin biz tərəfə?*
*Həmvətənin kolbasayçın duran vaxtı növbəyə*
*Nə gətirə bilərdin sən bu dilənçi ölkəyə?*
*Azmı qurban veribsiniz, bu həmlə nə deməkdir,*
*İyirmi milyon rəqəminə əlavəmi gərəkdir?”*
*Sərilmişdir rus cavanı Əfqanıstan düzündə,*
*Gəzir müsəlman-qarışqa onun tüklü üzündə.*
*Pravoslav qarışqadan istəyir ki, soruşsun*
*öz qarışqa dilində: -*
*Bu ölünü diriltməyə varmı sizdə bir əfsun;*
*Lakin bilmir o şimalda, yetim-yesir elində*
*Elə qadir qarışqalar az qalıbdır tərstəki*
*Qaldıralar, aparalar belə ağır bir yükü...*

AMEA-nın müxbir üzvü, tanınmış tənqidçi-ədəbiyyatşünas, professor Yaşar Qarayev onun yaradıcılıq şəxsiyyətini belə səciyyələndirirdi: “Qasım Qasımzadənin poeziyası onun şəxsiyyətinə bənzəyir – sərt və kövrək, sakit və çılğın, təbii və məğrur, milli və beynəlmiləl!.. Qasım Qasımzadə taleyi və şəxsiyyəti vəhdət təşkil edən şairlər sırasına mənsubdur. İstisnasız onun bütün yaxşı şeirləri həm zövqü, həm də məsləki eyni vaxtda və eyni dərəcədə oxşayan və ya narahat edən sənət nümunələridir” [9]. Ayaz Vəfalının da onun barəsində dediyi bir ifadə burada yerinə düşür: “İpək kimi yumşaq, ipək kimi möhkəm” [18].

Ümumiyyətlə, Q.Qasımzadə parlaq ədəbi şəxsiyyət kimi istər bir-birindən duyğulu, kövrək, həzin təbiət lirikası, istər sevgi şeirləri, istər vətənpərvərlik, istər də ictimai-siyasi lirikanın kifayət qədər dəyərli örnəklərini yarada bilmişdir.

Q.Qasımzadə yaradıcılığında millilik və vətənpərvərlik ideyası mövzu və ruh etibarı ilə bir-birini tamamlayaraq şairin fərdi yaradıcılıq xüsusiyyətləri müstəvisində vəhdət təşkil edir. Şeir və poemalarının əksəriyyətində klassik ənənəyə söykənən, oradan orijinallıqla bəhrələnən, millilik, vətənpərvərlik və beynəlmiləllik ideyalarını mükəmməl poetik mətnlərlə tərənnüm edən şair doğma vətənində baş verən ictimai-siyasi, sosial prosesləri, qlobal hadisələri vaxtında və daha dolğun şəkildə, qeyd etdiyimiz ədəbi-estetik ideyalar səviyyəsində ictimaiyyətin, geniş oxucu kütləsinin diqqətinə çatdıra bilmişdir.

Q.Qasımzadə poeziyasının əhəmiyyəti onda idi ki, o, “Böyük vətən”in kiçik problemlərindən deyil, “Kiçik vətən”inin böyük problemlərindən” (Bəkir Nəbiyev) bəhs edirdi. Belə bədii-estetik yanaşma üsulu vətənkeşliyin xidmətində idi. Xalqın mənəvi dünyasını, doğma Azərbaycanın dərdini, acısını dərindən duyan, bütün varlığı ilə ana yurduna bağlı şair vətəni bütün gözəllikləri və problemləri ilə birlikdə “poetik sənəd” səviyyəsində tərənnüm etməyi bacarırdı.

Qasım müəllimin 1992-ci il mayın 28-də qələmə aldığı “Qapını bağlayan fələk” adlı dərd qalası olan on bənddən ibarət bir şeiri var. Həmin şeirə preambulada oxuyuruq: “Bir adı Qala, bir adı Pənahabad olan Şuşa, dağlar qalası olan Laçın təkcə bu günümüz yox, tariximizdir, sərkərdələr, sənətkarlar yetirən əcdadımızın yadigarıdır, Pənah xanı, İbrahim xanı, Vaqifi, Natəvanı, Adgözəl bəyi, Mehmandarovu, Xosrov bəyi, Sultan bəyi, Üzeyir bəyi, Seyidi, Xanı, Bülbülü yetirən diyardır. Şuşa bizim qartal qıylı, bülbül cəh-cəhli yuvamızdır. Buna görə də, indi Şuşasız günlərimdə mən özümü yuvasız quş sayıram”.

*Ərşə qalxıb naləm mənim,*
*Alınıbdır Qalam mənim.*
*Əsir düşüb ciyərparam,*
*Şuşam mənim, qalam mənim.*

*...Misri qılınc hanı, hanı??*
*Sel-sel olsun gavur qanı.*
*Hayandadır bu günümün*
*Soltan bəyi, Pənah xanı?*

*Hayandadır, hayandadır,*
*Bamsı Beyrək, Xan Bayandır!?*
*Türk oğlu çox qandırıbsan,*
*Ermənini yenə qandır”* [15].

2005-2020-ci illər arası, 15 ildən sonra Azərbaycanın Bamsı Beyrəyi, Xan Bayanduru – Zəfər ordusunun Baş komandanı İlham Əliyev şairin – millətin, Türkün, külli Qarabağın, bütöv Azərbaycanın arzularını yerinə yetirdi, Qarabağı, Qarabağın “zümrüd tacı” (ifadə Qasım Qasımzadənindir!) Şuşanı erməni faşizminin işğalından azad etdi, Azərbaycan bayrağı Qarabağ dağlarında, şəhərlərində dalğalandı... Şair bu günü görməsə də, inanırıq ki, ruhu şaddır, arzuları çin olmuşdur...

Q.Qasımzadə yaradıcılığı haqqında görkəmli ədiblərin, tənqidçilərin, alimlərin, ədəbiyyatşünasların, o cümlədən, Süleyman Rəhimovun, Mirzə İbrahimovun, Məmməd Rahimin, Süleyman Rüstəmin, Mehdi Hüseynin, İlyas Əfəndiyevin, Bayram Bayramovun, İsmayıl Şıxlının, İbrahim Kəbirlinin, Məmməd Cəfərin, Kamal Talıbzadənin, Əziz Mirəhmədovun, Yaşar Qarayevin, Əkbər Ağayevin, Qulu Xəlilovun, Məsud Əlioğlunun, Şamil Salmanovun, Səfurə Hüseynovanın, Qurban

Bayramovun, Rəhim Əliyevin, Şirindil Alışanlının, Rafiq Yusifoğlunun və başqalarının fikir və mülahizələri vardır. “Azərbaycan ədəbiyyatı tarixi” kitabında 1950-1980-ci illər dövrünün poeziyasına aid fəsildə Q.Qasımzadənin yaradıcılığına da müraciət olunmuş, yaradıcılığı barədə dissertasiya yazılmış, müasir poeziya haqqında əksər elmi tədqiqatlarda ondan bəhs edilmişdir...

Q.Qasımzadənin əsərləri barədə xaricdə tanınmış zamandaşlarının maraqlı fikirləri də mövcuddur. Qafur Qulam yazırdı: “Qasım Qasımzadənin şeirləri hər cür biganəlikdən uzaqlıq, dramatik narahatlıq duyğusu ilə səciyyələnir. “Rədd olsun laqeydlik!” – Qasımzadə özünün bu devizinə həmişə sadiqdir” (Qeyd: Sitat Yaşar Qarayevin adı çəkilən məqaləsindən götürülmüşdür. Nəriman Qasımoğlunun təqdimatında bu fikir 1958-ci ildə Bakıda olmuş Həmid Qulama aiddir).

Hələ sağlığında kitabları respublikanın hüdudlarından kənarda, Moskvada nəşr edilir, əsərləri bir çox xalqların – ərəb, ingilis, fransız xalqlarının dillərinə tərcümə edilir, Polşada, Bolqarıstanda, Türkiyədə, İraqda, İranda çap olunurdu.

Nobel Mükafatı laueratı Con Steynbek Nobel nitqində deyir: “Yazıçılar müxtəlif günahlara, uğursuzluqlara düçar ola-ola daha da təkmilləşmək üçün yazmağa məhkumdurlar. Yazıçılar (oxu – şairlər, alimlər, qələm əhli – Q.B.) insan ruhunun gücünü, qəhrəmanlıq və sevgini vəsf etmək üçün göndərilmiş adamlardır. ...İnsan bizim ən böyük ümidimizə və həm də ən böyük təhlükəmizə çevrilib.” Bu gün Con Steynbek fikrini öz sözləri ilə belə ifadə edərdi: “Son – sözdür, Söz – insandır və insan insanlardır” [3].

Şair, alim, tənqidçi, tərcüməçi, publisist, naşir Q.Qasımzadə də “insan ruhunun gücünü, qəhrəmanlıq və sevgini vəsf etmək üçün göndərilmiş adamlar”dandır və əminəm ki, onun parlaq siması, bütün həyatı, fəaliyyəti, fövqəladə missiyası sözə bürünmüş olaraq cazibəsini hər zaman saxlayacaqdır.

Taleyim elə gətirmişdi ki, 1967-ci ildən 1993-cü ilə qədər Q.Qasımzadənin rəhbərlik etdiyi şöbədə onun bərəkətli və xeyirxah əllərini çiynimdə hiss edərək fəaliyyət göstərmişəm. Onun təqdimatına və fəallığıma görə İnstitutun komsomol təşkilatının katibi, Gənc Alimlər Şurasının sədri, sonra Həmkarlar təşkilatının sədri ictimai vəzifələrini aparmış, professor Mirzəağa Quluzadənin, Yaşar Qarayevin, Əziz Mirəhmədovun, akademik Məmməd Cəfərin, akademik Bəkir Nəbiyevin direktorluğu müddətində, onların sədr olduğu elmi şuranın, üzvü olduqları partiya bürosunun üzvü olmuşam, onlardan böyük həyat və elmi təcrübə dərsləri almışam. Aspiranturaya daxil olarkən ilk elmi referatım Q.Qasımzadənin “Aşıq gördüyünü çağırar” ədəbi-tənqidi, elmi məqalələr kitabı haqqında olmuş, imzasız – gizli rəyə olduqca tələbkar və prinsipial tənqidçi-ədəbiyyatşünas Məsud Əlioğluna verilmiş, yüksək dərəcədə dəyərləndirilmişdi. Həmin referatı aspirantura dövründə məqalə şəklində dərc etdirdim. Tale üzümə yar olduğundan Q.Qasımzadənin yaradıcılığı haqqında bəyənilən (oxucu məktubları almışdım) iki məqalənin müəllifiyəm, hətta Qasım müəllimlə həmmüəllif məqaləmiz də var...

Qasım müəllim şöbəmizin müdiri timsalında əksər elmi tədqiqatlarımın redaktoru, rəyçisi, “Səməd Vurğun poeziyasında lirik qəhrəman” dissertasiyamın elmi müzakirələrinin təşkilatçısı və dəyərli tövsiyəçisi olub, müdafiəmdə qayğı və köməyini əsirgəməyib, “Azərbaycan sovet poeziyasının inkişaf meyilləri” mövzusunda yazıb bitirdiyim və müdafiəyə layiq gördüyü doktorluq dissertasiyamın müdafiəsinin intizarını çəkib. Ailə qayğıları və digər səbəblərdən (səbəb gətirmək də bir bəhanədir) hazır dissertasiyanı vaxtında müdafiə edə bilmədim...

Şair-alim, professor, “Sovet ədəbiyyatı” şöbəsinin müdiri, həmişə ustadım saydığım (indinin özündə də) Q.Qasımzadənin elmi fəaliyyətini öz müşahidələrimlə belə xülasələndirərdim:

1. Çıxışlarının, təhlillərinin aktuallığı, operativliyi, filoloji problemlərlə yüklənməsi, real mənbələrə istinadı, aydın, konkret ədəbi-elmi terminologiyası, nəzakət həddində milli yumoru, nitqləri və yazılarındakı sətiraltı ironiyası, həssaslığı filoloji prinsiplərə tam cavab verirdi.

2. Q.Qasımzadə öz üzərində ciddi, mütəmadi çalışır, fərqli mənbələrdən məlumat bazası formalaşdırır, şöbə əməkdaşlarından, dissertantlardan, aspirantlardan da bunu çox incə tərzdə, yəni inkar edilməz tərzdə "tələb" edirdi.

3. Filoloji sahəyə dair informativ aparatı tələb olunacaq dərəcədə geniş idi, Azərbaycanda və İttifaq miqyasında tanınır, geniş əlaqələri, ədəbi-elmi dairələrdə dostları, tanışları var idi və bu tanışlıq Azərbaycanda ədəbi-elmi fikrə xidmət edirdi.

4. Gərgin fəaliyyət rejiminə baxmayaraq, çəkdiyi zəhmət təmənnasız idi, saf, təmiz, halal həyat tərzi sürür və bununla həmkarlarına əvəzsiz bir nümunə sərgiləyirdi.

5. On iki il Azərbaycan Dövlət Televiziyasında müəllifi və aparıcısı olduğum "Ədəbiyyatşünaslıq və zaman" verilişlərindəki çıxışlarını yaxşı xatırlayıram. İntellektual səviyyəsi yüksək, söz və düşüncə sərhədləri geniş idi, maraqla dinlənilirdi, səmimiyyəti güclü olduğundan xarizmatik idi.

6. İstedadlı gənclərin inadkar mühafizəçi idi... Bir tövsiyəsini qətiyyən unutmamışam və əməl edirəm. Deyərdi: "Qurban, əlində qələm olanda heç vaxt qələm dostlarını və istedadlı gəncləri yaddan çıxarma, bir vasitə tap qiymətləndir, heç olmasa adlarını çək!!"

7. Tanınmış elmi şəxsiyyətlər arasında özünü inamlı hiss edirdi, nüfuz sahibi kimi qərəzsiz polemika mədəniyyətinə sahib idi.

Q.Qasımzadənin sənətkar şəxsiyyəti, küllən yaradıcılığı milli-mənəvi sərvətimiz, milli dəyərimiz və qürur məkanımızdır. O, Azərbaycanın bədii söz səltənətində özünəməxsus yer tutmuş, ədəbiyyatımıza başucalığı gətirən, milli məfkurə yüklü, sanballı, təkrarolunmaz, hünərvər, kamil, əbədiyyət qazanmış Azərbaycan sənətkarlarındandır.

*"Əbədiyyət" şeirində deyir:*
*...Bir ağacdan neçə budaq*
*Şaxələnib çıxacaqdır.*
*Öyünməsin ölüm nahaq–*
*Mənim qanım milyonların,*
*Nəsil-nəsil insanların*
*Damarında axacaqdır.*

*Mənim gözüm milyonların,*
*Nəsil-nəsil insanların*
*Gözlərilə bu dünyaya –*
*Ulduzlara, günə, aya*
*Zaman-zaman baxacaqdır...*

Bu, mistika deyil, özünə və yaradıcılığına, ən ümdəsi isə, ömrü boyu sevdiyi xalqına inamıdır!

## Nəticə / *Conclusion*

Çağdaş Azərbaycan ədəbiyyatında poeziyasının mövzu rəngarəngliyi və özünəməxsus xüsusiyyətləri ilə danılmaz mövqe qazanmış, elmi-nəzəri ədəbiyyatşünaslıqda əhəmiyyətli rolu olan, ədəbiyyatımızın dəyərli səhifələrini yaratmış Q.Qasımzadə əsl yaradıcı ŞƏXSİYYƏT idi və bu gün özü də, sözü də bizimlədir. Hələ ötən əsrin 40-cı illərində qeyd dəftərinə ünlü türk yazıçısı Ruşen Eşrefin "Damla-damla" kitabından köçürdüyü bu parça indi onun özü haqqında deyil də, bəs nədir: "Ressam gider, resmi kalır; şair ölür, şiiri kalır; mimar yıkılmış, yapısı ayakta; bestekar susmuş, bestesi kulakta!... Bu cihan hep yaratılmışların cihanımı ki, yaratanlar birer hiç geçip gidiyor?!..."

Qasım Qasımzadə bu gün 100 yaşında da sənətinin sehri ilə çiçəkləri dindirməyə qadir sənətkardır. Özü demiş:

*Bu gün bir sehirlə durdum üz-üzə,*
*Qönçəsi çırtlayan adi çiçəkdi.*
*Çatmış olsaydı da ömrüm lap yüzə*
*Onu danışdırıb dindirəcəkdim...*

**Ədəbiyyat / *References***


1. Ağayev, Ə. "Azərbaycan Sovet poeziyası (1920-1970). İnkişafın əsas meylləri" (jurnal variantı) / "Azərbaycan" jurnalı, – 1974, № 7, – s.77., № 1-10.
2. Ağayev, Ə. "Əsrin tərənnümü" (məqalələr). – Bakı: Yazıçı, – 1980. – 231 s.
3. Ağayev, Ə. Azərbaycan sovet poeziyası (1920-1970): inkişafın əsas meyilləri və sənətkarlıq, ənənə və novatorluq məsələsi, doktorluq dissertasiyası. – Bakı: – 1972. BDU-nun elmi kitabxanası, şifrə 2357.
4. Bağırlı, A. "Sovet dövrü ədiblərimizin Türkiyə qeydləri" / "525-ci qəzet", 21.12.2021.
5. Cavadova, R. "Müasir Azərbaycan poeziyasında vətənpərvərlik problemlərinin bədii inikası (Qasım Qasımzadənin poeziyası əsasında)". Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın AVTOREFERATI .– Bakı: – 2017. – 27 s.
6. Con Steynbek. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, – 2013, "Nobel Mükafatı laueratı Con Steynbek Nobel nitqi.", – s.885-886. – 888 s.
7. Əlioğlu, M. Müqəddəmə. Bax; Qasımzadə Qasım. "Bizim kənd" (şeirlər) kitabı. – Bakı: Uşaqgəncnəşr, – 1951.
8. Əlişanoğlu, T. Çağdaş Müsavatın işıqlı simalarından şair Qasım Qasımzadə / "Yeni Müsavat" qəzeti, 8 iyul 1993-cü il;
9. Əlişanoğlu, T. Çağdaş türkçülüyün göyü və yeri. T.Mustafayev. Yeni Turan. – 1993. – 24 mart.
10. Hacı Nərimanoğlu. "Qubadlısız 16 il" kitabı. Bakı: Elm və Təhsil, – 2019.
11. Həbibbəyli, İ. Qoşa qanadların harmoniyası / "525-ci qəzet", 14.07.2018.
12. Qarayev, Y. Poeziyanın və ömrün yaşı (ön söz). Qasımzadə Qasım. Seçilmiş əsərləri. – Bakı: Avrasiya Press, – 2005, – s.4. – 280 s.
13. Qasımoğlu, N. Qasım Qasımzadə ilə bağlı xatirələr / "Ədəbiyyat qəzeti", 20.10.2017.
14. Qasımzadə, Q. "Seçilmiş əsərləri". – Bakı: Şərq-Qərb, – 2005, – s.79-80. – 280 s.
15. Qasımzadə, Q. "Hamı öz mövqeyini açıq bildirməlidir" (müsahibə) / "Ədəbiyyat qəzeti", – 4 oktyabr, – 1991.
16. Qasımzadə, Q. Aşiyan qeydləri. Türkiyəli araşdırmaçı Məsud Kaplanın təqdimatında. "Ədəbiyyat qəzeti", 11. 07. 2020, – s.6; "Ədəbiyyat qəzeti"nin saytı: 17.07.2020.
17. Qasımzadə, Q. Bənövşə yarpağı. – Bakı: – 1964.
18. Qasımzadə, Q. Türkiyə silsiləsindən, – 1968. "Seçilmiş əsərləri", Bakı: – 2005.
19. Qasımzadə, Q. "Ölmədim, üçrəngli bayrağımızın Azadlıq meydanında ucaldığını gördüm", "Ədəbiyyat" qəzeti, 5 iyun 1992-ci il.
20. Mütəllimov, T. Ədəbi müşahidələr. "Ədəbiyyat qəzeti", 23.06.2023-cü il.
21. Nəriman Qasımoğlu. Bu, Arəstə xanım Şahsuvarqızıdır, rəhmətlik nənəm, "Ədəbiyyat qəzeti". 2017, 9 sentyabr.
22. Yusifoğlu, R. Vətən təbiətinin yorulmaz tərənnümçüsü. "525-ci qəzet", 12.06.23.

# Видный признанный и неповторимый творец нашей литературы...

**(*Литературный портрет поэта с изумрудной короной Касума Касудзаде в нашей поэзии*)**
***Касум Касумзаде – 100***

**Гурбан Байрамов**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме.** Герои К.Касумзаде – это люди нашего века, трудолюбивые люди, живущие благородными и возвышенными чувствами, такими как верность, уважение, искренность, объединенные общечеловеческими идеями, новые и современные люди. Его произведения прошли определенный процесс диалектического развития как жанр. Эти стихи столь же богаты по содержанию, сколь и красочны по форме. К.Касумзаде умел создавать произведения в различных жанрах: эпическом и лирическом. К.Касумзаде – серьезный поэт как в плане личности, так и творчества. Его поэзию любят, ценят, изучают. Используя наиболее совершенные поэтические средства поэзии, он глубоко проникает в психологию создаваемых им образов людей, собирает и обобщает в них новые нравственные качества и создает живую картину жизни. Язык поэта прост и искренен. Язык его стихов ясен и доступен. Здесь дух просторечия, живое и выразительное сильное поэтическое чувство, волнение вызывает сопереживание в сердце читателя. В целом эта особенность является одним из главных достоинств работы К.Касумзаде. Изучая стихи поэта, мы пришли к выводу, что он хорошо знал все тонкости жанра стихотворения, обогатил его новой формой и содержанием.
**Ключевые слова:** творчество, любовь, Родина, поэзия, народный поэт, мастер, герой, лирический герой